# AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
# MAGİSTRATURA MƏRKƏZİ

## “AZƏRBAYCANIN XİƏ-NİN GEOİQTİSADİ ASPEKTLƏRİ"

| | |
|---|---|
| İXTİSASıN ŞİFRİ VƏ ADı: | 060401 “DÜNYA İQTİSADİYYATı” |
| İXTİSASLAŞMA: | “BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR |
| ELMİ RƏHBƏR: | I.E.D. PROF. R.T.HƏSƏNOV |
| KAFEDRA MÜDİRİ: | I.E.D. PROF. Ş.H.HACıYEV |
| MAGİSTRATURA PROQRAMıNıN RƏHBƏRİ | I.E.D., PROF. Q.MANAFOV |

# AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ MAGİSTRATURA MƏRKƏZİ

## "AZƏRBAYCANIN XİƏ-NİN GEOİQTİSADİ ASPEKTLƏRİ"

| | |
|---|---|
| İXTİSASıN ŞİFRİ VƏ ADı: | 060401 "DÜNYA İQTİSADİYYATı" |
| İXTİSASLAŞMA: | "BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR |
| ELMİ RƏHBƏR: | I.E.D. PROF. R.T.HƏSƏNOV |
| KAFEDRA MÜDİRİ: | I.E.D. PROF. Ş.H.HACıYEV |
| MAGİSTRATURA PROQRAMıNıN RƏHBƏRİ | I.E.D., PROF. Q.MANAFOV |

# MÖVZUNUN AKTUALLıĞı

Xarici iqtisadi əlaqələrin geoiqtisadi aspektlərinin tədqiq edilməsi iqtisadi fəaliyyətin bütün sahələrində islahatların aparıldığı bazar iqtisadiyyatı şəraitində vacib əhəmiyyət kəsb edir.

Danılmaz faktdır ki, ölkəmizdə dayanıqlı inkişafın təmin edilməsi həm daxili resurs potensialından, eyni zamanda xarici iqtisadi əlaqələrdən lazımı səviyyədə istifadə edilməsini zəruri edir. Belə əlaqələrin qurulması ilk növbədə xarici iqtisadi əlaqələrin konseptual əsaslarının tədqiq edilməsini tələb edir. Dediyimiz istiqamətdə ölkəmizin mövcud iqtisadi vəziyyətini, mövcud olan regionlaşmanın xüsusiyyətlərini, subregional qruplaşmalarda iştirakını, geostrateji, geoiqtisadi yerini nəzərə almaqla elmi əhəmiyyət kəsb edən xarici ticarət modelini yaratmaq mümkündür.

# DİSSERTASİYA TƏDQİQATıNıN PRAKTİKİ ƏHƏMİYYƏTİ

Magistr dissertasiyasının praktiki əhəmiyyəti hər şeydən öncə irəli sürülən təkliflərin tədbiqi nəticəsində ölkə iqtisadiyyatının dayanıqlı inkişafına, eyni zamanda onun xarici iqtisadi əlaqələrinin milli maraqlar prizmasından inkişafının sürətlənməsinə şəraitin formalaşması ilə müəyyən edilir. İşdə göstərilən tövsiyyələr Azərbaycanın davamlı inkişaf konsepsiyasının və dövlət proqramlarının işlənməsində istifadə edilə bilər. Qeyd etdiyiniz təkliflər respublikanın xarici iqtisadi əlaqələrinin inkişafının daha da artırılmasına, effektivliyinin yüksəlməsinə, milli iqtisadiyyatın formalaşmasında perspektiv xarici, daxili faktorların bağlı sürətdə maksimum istifadəsinə mümkün olan imkanlar yarada bilərdi.

# AZƏRBAYCANıN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xarici iqtisadi əlaqələr kompleksində valyuta münasibətləri və elmi-texniki əməkdaşlıqla bağlı səhifələrin tərtib edilməməsi sözügedən sferalarda mövcud olan reallıqlarla əlaqəlidir. Azərbaycanın milli valyutasının dönərli olmaması geoiqtisadi anlamda valyuta münasibətlərinin "müstəqil" vərəq kimi tərtibinə ehtiyac yaratmır. Yəni ki, valyuta münasibətləri rakursundan geoiqtisadi vəziyyətin qiymətləndirilməsi, istənilən təzahür formasında törəmə xarakter alacaqdır.

- Bu vəziyyətdə , milli ixracat  həm Qərb, həm də Şərq ölkələrini əhatə edir. Tədqiqatlar göstərir ki,  ölkə ixracatının 90%-dən çoxu cəmi 10 ölkənin payına düşür. Qərb ölkələri  siyahida 50 %-lik payla irəlidə gəlirlər. Göstərdiyimiz təmərküzləşmə ixracatın coğrafi diversifikasiyası baxımından problematikdir. Eyni zamanda nəzərə alsaq ki,ümumi ixracatın 90%-dən çoxu karbohidrogen resurslarının payına düşür, onda ixracatın yarısının Qərbə istiqamətlənməsinin öz-özlüyündə Azərbaycan-Qərb qarşılıqlı bağlılığının, sırf geoiqtisadi anlamda üzvi xarakter daşımadığını bildirir. Təbii ki, Qərbin enerji təhlükəsizliyi baxımından Azərbaqycanın rolunun artımı real məzmunlu geoiqtisadi üstünlüklər əldə edilməsi nəzərindən təqdirəlayiq hal hesab olunsa da, əlaqənin mahiyyəti həm zaman, həm də inkişaf rakursundan əlverişli  hesab oluna bilməz.

Məlumdur ki, indi Azərbaycan 7 mlrd.barel həcmində kəşf edilmiş neft ehtiyyatları ilə dünyada 19-cu yeri tutur. Ümumilikdə, ölkədə hipotetik neft ehtiyyatlarının 4 mlrd.ton civarinda olduğu guman edilir. Eyni zamanda , ölkəmiz kəşf olunmuş təbii qaz ehtiyyatlarına görə (2.55 trln.$m^3$ )dünyada 28-ci yerdədir. Təbii qazın hipotetik ehtiyyatları 6 trln $m^3$ təşkil edir.

Bu günki gündə dünya enerji bazarının tutumu 12 mlrd tona yaxındır. BP-nin proqnoz hesablamalarına əsasən 2030-cu ilə qədər dünya enerji bazarının hər il orta hesabla 1,6 % artmaqla 16,7 mlrd. tona (neft ekvivalenti ilə) çatacağı nəzərdə tutulur. Bu dövr ərzində dünya əhalisinin 1,3 mlrd. nəfər artacağı və həcmi qlobal məhsulun 2 dəfə çoxalacağı nəzərdə tutulur.

# AZƏRBAYCANDA NEFT HASİLATıNıN DİNAMİKASı



Ötən illərdə Türkiyə imzalanmış və təbii qazın avropaya nəqlini nəzərdə tutan TANAP layihəsi və bunun ardınca TAP (transadriatik qaz kəməri) layihəsinin həyata keçirilməsilə Azərbaycanın Avropa qitəsində geoiqtisadi cəlbediciliyini daha da artırmaqla, ölkə enerji ilə təchizat sferasında transregional təhlükəsizlik sisteminin əsas iştirakçılarından birinə çevriləcəkdir.

Göründüyü kimi, dünya neft bazarının tərkibində müəyyən dəyişikliklərin baş vermədiyi şəraitdə Asiya-Sakit okean hövzəsi regionunun idxal asılılığı daha da möhkəmlənəcəkdirki, bu da bir tərəfdən bu regionun sürətli inkişaf potensialı ilə əlaqələndirilirsə, digər tərəfdən qlobal səviyyəli iqtisadi axınların istiqamət dəyişikliyinin gerçək məzmun daşıdığını ortaya çıxarır. Başqa bir tərəfdən, əsas ixrac potensialının Yaxın Şərq regionunda cəmləşməsi həm burada, həm də qonşu bölgələrdə, xüsusilə Qara dəniz hövzəsi regionunda geosiyasi situasiyanın bugünkü gərginliyini olduğu kimi saxlama ehtimalını dahada qabarıq vurğulayır. Bu da Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan Qara dəniz hövzəsi məkanında əlverişli geoiqtisadi fəaliyyətinə mənfi təsir göstərə bilər.

# AZƏRBAYCANıN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİN GEOİQTİSADİ YANAŞMADAN QİYMƏTLƏNDİRİLMƏSİ

Tədqiqatlarımızın proqnoz hesablamaları onu göstərir ki, 2006-2010 cu illər ərzində, dünyada baş verən qlobal böhrana baxmayaq, xarici ticarət dövriyyəsi böyük templə yüksəlmiş və bu proses 2025-ci ilə qədər davam edəcəyi gözlənilir.

Xarici ticarət göstəricilərin proqnoz nəticələri



Göründüyü kimi, 2013-cü ildə 1995 və 2003-cü illərə nisbətən ixracatın ümumi həcmi uyğun olaraq 37,5 dəfə və 9,2 dəfə artmışdır . Həmçinin, ixracatın ÜDM-da xüsusi çəkisi 8,5% artaraq 34,5% olmuşdur. Tədqiqatlar göstərir ki, araşdırdığımız dövr ərzində (1995-2015) ölkənin iqtisadi potensialınm güclənməsi, əhalinin rifah səviyyəsininn yaxşılaşdırılması və sosial-iqtisadi inkişafın dayamlılığının möhkəmləndirilməsidə ixracatın sürətli artımı müstəsna rol oynamışdır.  Bununla belə , 1995-ci illə müqayisədə adambaşına ixracatın artım tempi adambaşına ümumidaxili məhsulun artımı tempini əhəmiyyətli dərəcədə (uyğun olaraq 30,6 dəfə və 23,4 dəfə) üstələmiş, 2003-cü illə müqayisədə isə təqribən bərabərlik səviyyəsinə çatmışdır.

# İxracatın Əsas Sahələr Üzrə Strukturu (Min ABŞ Dollar)

| Sahələr | 1995 | 2000 | 2010 | 2016 | 2016/1995-ci ilə nisbətən (+,-) |
|---|---|---|---|---|---|
| Yeməli meyvələr | 10339.4 | 21982.4 | 112486.2 | 243757.2 | 233408,8 |
| Neft və neft emalı məhsulları | 371883.4 | 1484904.9 | 20110189.3 | 7955836.7 | 7583949,5 |
| Qara metallar | 81 67.1 | 60 48.8 | 76978.9 | 38 39890,1 | 30823,7 |
| Pambıq | 116835.3 | 36542.8 | 15893.2 | 24232.7 | -92603,7 |
| Plastik kütlələr və onlardan hazırlanan məmulatlar | 10603.7 | 20021.8 | 84510.1 | 98981.7 | 88379,4 |

Tədqiqatlarımız onu  göstərir ki, daxili istehsala münasibətdə ixracatın üstün artımına baxmayaraq, digər sahələrə münasibətdə problemlər yenə də mövcuddur. Beləliklə, yeyinti sənayesi və kənd təsərrüfatı məhsullarınm cəmi səkkiz faiz, yüngül sənaye məmulatlarınm iyirmi beş faiz, metallurgiya sənayesinin iyirmi üç faizi, digər sənaye sahələrinin isə altı faizi ixrac olunur. Bu siyahida miniral məhsullara (70%), kimya sənayesi məhsullarına (65%) və maşınqayırma sənayesi (62%)  üstün mövqedədir.

2009-2016-ci illər ərzində idxalın artım tempi ixracatla analoji konfıqurasiyada təsvir olunur.  Eyni zamanda, bu da ölkədə idxaləvəzedici məhsullarının xüsusi çəkisinin artmağını bildirir.

# İxracatın Dinamikası

| Göstərici | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| MDB ölkələri (min ABŞ dollar) | 1137441.2 | 1983871.2 | 2924444.4 | 1251985.6 | 1509637.9 | 838056.2 | 526374.2 | 663612.0 |
| Belarus (min ABŞ dollar) | 5170.5 | 7210.5 | 666771.6 | 11691.1 | 14697.7 | 15095.1 | 10044.1 | 48236.5 |
| Qazaxıstan (min ABŞ dollar) | 142148.8 | 44592.4 | 58281.5 | 52870.3 | 64234.3 | 29838.5 | 17958.8 | 26274.2 |
| Qırğızıstan (min ABŞ dollar) | 4559.5 | 40542.2 | 21151.3 | 26676.9 | 12760.9 | 25800.1 | 6561.0 | 5637.8 |
| Moldova (min ABŞ dollar) | 3745.5 | 177.8 | 2543.7 | 251.7 | 190.2 | 68.4 | 448.3 | 498.8 |
| Özbəkistan (min ABŞ dollar) | 5769.3 | 20302.4 | 21881.7 | 11523.4 | 10678.5 | 37900.3 | 10873.7 | 3418.8 |
| Rusiya (min ABŞ dollar) | 746426.3 | 773551.8 | 1187357.2 | 959837.1 | 1077844.4 | 640273.4 | 417754.1 | 409274.3 |
| Tacikistan (min ABŞ dollar) | 8095.2 | 8181.1 | 13213.2 | 43990.1 | 13763.0 | 2636.7 | 6443.8 | 12081.9 |
| Türkmənistan (min ABŞ dollar) | 37478.5 | 200677.1 | 43922.8 | 58915.6 | 39852.1 | 38004.6 | 32814.9 | 113787.1 |
| Ukrayna (min ABŞ dollar) | 184043.6 | 888637.8 | 909325.7 | 86228.4 | 275618.9 | 48442.0 | 23476.5 | 44404.5 |

# İdxalatın Dinamikası

| Göstərici | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| MDB ölkələri (min ABŞ dollar) | 1827132.9 | 2051110.4 | 2553456.7 | 2378020.4 | 2553244.1 | 2083178.9 | 1961099.3 | 2161729.6 |
| Belarus (min ABŞ dollar) | 136757.6 | 112550.8 | 64541.1 | 68029.3 | 87335.8 | 83938.6 | 83631.6 | 76302.4 |
| Qazaxıstan (min ABŞ dollar) | 63618.7 | 293554.8 | 217308.9 | 340556.1 | 306764.3 | 221055.1 | 98925.6 | 98119.1 |
| Qırğızıstan (min ABŞ dollar) | 751.6 | 1006.5 | 923.4 | 2241.7 | 1768.1 | 1704.6 | 1605.2 | 1089.2 |
| Moldova (min ABŞ dollar) | 2911.6 | 5925.3 | 5576.7 | 8786.8 | 4016.7 | 5433.0 | 3559.6 | 3964.7 |
| Özbəkistan (min ABŞ dollar) | 12365.8 | 12333.7 | 50556.1 | 8027.3 | 10769.4 | 23612.9 | 6168.8 | 11947.2 |
| Rusiya (min ABŞ dollar) | 1072082.2 | 1145018.8 | 1641095.9 | 1378417.4 | 1505177.4 | 1314490.4 | 1437938.3 | 1641809.2 |
| Tacikistan (min ABŞ dollar) | 742.8 | 1255.1 | 2774.6 | 159.6 | 42.9 | 189.1 | 0.0 | 239.7 |
| Türkmənistan (min ABŞ dollar) | 26172.3 | 13918.4 | 12913.6 | 32714.2 | 48300.3 | 13198.4 | 19621.0 | 38487.9 |
| Ukrayna (min ABŞ dollar) | 511743.4 | 465560.9 | 557772.4 | 539088.6 | 589073.6 | 419578.7 | 309652.5 | 289773.4 |

# AZƏRBAYCANıN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN KOMPLEKS TƏHLİLİ

İxracın strukturunda neft və neft məhsullarının üstün oıması transformasiya iqtisadiyyatının yaratdigi məntiqi nəticə olmaqla birgə, hələ uzun muddət davam edəcəkdir. İndiki dönəmdə aparılan islahatlar kompleksinin qarşıya qoydugu əsas məqsədlərdən biri xüsusən ixracatın strukturunun diversifikasiyası, ixrac potensialının artırılması və dayanıqlığının təminatıdır . Tədqiqat göstərir ki, Azərbaycanın bütövlükdə xarici ticarətinin inkişafına mənfi təsir edən öncül faktorlar sırasında əsasən, dünya təsərrüfatı sistemi ilə iqtisadi əlaqələrin aşağı səviyyədə olmasını, iqtisadi əməkdaşlıq formalarının ciddi səviyyədə diversifikasiya olunmamasını, iqtisadiyyatın ümumi strukturunada hasilat sənayesinin xüsusi çəkisinin üstün olması və kənd təsərrüfatına lazımi investisiya qoyuluşlarının edilməməsini göstərmək olar. İxrac siyasətinə və onun, effektivliyini azaldan amillərə əsasən aşağıdakılar aid edilməlidir Malların rəqabət qabiliyyətinin aşağı olması; innovasiya tələb edən elmtutumlu məhsul növlərinin istehsalına keçid prosesinin zəif surətlə aparılması; sənaye məhsullarının keyfiyyətinin dünya bazarındakı analoji malların keyfiyyətindən aşağı olması; xarici ticarət sahəsinə dair milli qanunvericiliyin ÜTT-nin prinsiplərinə cavab verməməsi. Qeyd etmək yerinə düşərdi ki, son illərdə iqtisadi subyektlər region ölkələri ilə əməkdaşlığa daha çox meyllidirlər. Həmçinin, 90-cı illərin sonlarında Azərbaycanın ixracının 90%-i, idxalının isə 65%-i regional təşkilatlarla ticarət əlaqələrinin üzərinə duşurdü. Azərbaycanın regional təşkilatlarla əməkdaşlığında həm idxal, eyni samanda ixrac üstünlük təşkil edir. «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» Qanunun qəbul edilməsi nəticəsində xarici ticarətdə əmtəə dövriyyəsi yüksəlmişdir . Bu prosesə regional təşkilatların üzv dovlətləri ilə ticari əməkdaşlığının təsiri danılmazdır.

Azərbaycanın neft ixracını genişləndirməsində birinci amil qiymətdir. Yanacaq enerji resurslarının qiymətinin yüksəldiyi şəraitdə respublikamız da bu amildən faydalanmağa çalışır. Bir çox neft məhsullarından başqa respublikamız dünya bazarlarına həm də neft koksu, sürtkü yağları, neft bitium, ağ neft və digər. bu kimi mallar ixrac edir. Göstərilən cədvəllərdə illər ərzində neft emalı məhsulların ixrac, eyni zamanda istehsal həcmləri verilmişdir. Nəzərə alınmalıdır ki, Azərbaycanın əsas ixracı xam neftə əsaslanır. Respublikamızın dünya bazarına təqdim etdiyi xam neftin 2006-2013-cü illər üzrə ixrac cədvəlinə nəzər diqqət yetirək. Neft ixracı min tonla göstərilmişdir. Cədvələ xam neftdən başqa, həm də qaz kondensatı əlavə edilmişdir.

# 2006-2013-CÜ İLLƏR ÜZRƏ XAM NEFT İXRACı



# AZƏRBAYCAN RESPUBLIKASıNıN XARİCİ TİCARƏT STRATEGİYASıNıN ƏSAS PRİORİTETLƏRİ

Müasir dövrdə Azərbaycan iqtisadiyyatında mövcud subyektlər rəqabətqabiliyyətli məhsullar istehsal etmək qabiliyyətinə malikdir.  Məlum olduğu Azərbaycanda perspektivli sahələr kimi aqrar sektor, neft maşınqayırması, metallurgiya avadanlıq istehsalı, turizm, dəniz və avtomobil yük daşımaları, tikinti, rabitə informasiya texnologiyaları sahələrində aparılan düzgün və səriştəli marketinq strategiyası ilə əlaqədardır.

Dövlət yardımları hər şeydən əvvəl rəqabət qabiliyyətli, perspektivli sahələrə göstərilməlidir, subsidiya mexanizmi düzgün qurulmalıdır, belə ki, həmin dəstək vergi güzəştləri, ixracın sığortalanması, birbaşa subsidiyalar (ixracda geri ödəmələr, güzəştli kreditlər) ixracatçılar üçün sərgi və yarmarkaların təşkil edilməsi , biznesdə "Çempionların" müəyyən edilməsi, elmi tədqiqat təcrübə konstruktor işlərinə dəstək formalarında aparıla bilər. Ən başlıca məsələlərdən biri də mütəxəssis hazırlığıdır. Ölkəmizdə ixracın ümumi həcmində özəl sektorun xüsusi çəkisi artması müsbət hal kimi qiymətləndirilə bilər.

Maliyyə bazarlarının zəif inkişaf etdiyi və bazar mexanizminin sərbəst pul vəsaitlərinin səmərəli şəkildə səfərbər edilməsi və bölüşdürülməsi imkanlarının məhdud olduğu inkişaf etməkdə olan ölkələrdə dövlət, kredit axınlarının strukturuna birbaşa təsir göstərməklə mühüm sənaye sahələrini güzəştli şəkildə maliyyələşdirə bilər. Texnoparklar və klasterlərin regionlarında formalaşdırılması prosesi başa çatdırılmalıdır. 2015-ci ildə Azərbaycanda "Kənd Təsərrüfatı İli" elan edilmişdi, neft hasilatı hər il 5-6 % azalır, dünya bazarında neftin qiməti aşağı düşür.

Əhalinin 32%-i kənd təsərrüfatı ilə məşğuldur. Emal müəssisələrinin şəhərlərdə yox kəndlə və yaxın ərazilərdə təşkil etmək məqsədəuyğundur ki, nəqliyyat xərcləri az olsun. Kənd təsərrüfatı məhsulları bazarını təşkil etmək qarşıda duran ündə və\ifələrdən hesab edilir. Bu ərzaq təhlükəsizliyinin təminatı deməkdir.

Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsinə xidmətlər ticarəti mühüm yer tutur. Məlumdur ki, bir çox xidmət növləri beynəlxalq ticarət dövriyyəsinə cəlb edilə bilir. Respublikanın tədiyə balansında xidmətlər balansı mənfi saldo ilə müşahidə olunur. Bunun əsas səbəbi milli ixracatçıların təklif etdikləri xidmətlərin sayının az və rəqabət qabiliyyətinin aşağı olmasıdır. Buna əsas səbəb beynəlxalq standartlara cavab verməyən informasiya texnologiyaları sistemi, mehmanxana, otel şəbəkəsi, nəqliyyat, maliyyə xidmətləri bazarı, turizm industriyası ilə əlaqədardır. Son illərdə respublikamız digər ölkələrdə xidmətlər göstərir. Məsələn tikinti xidmətləri, nəqliyyat xidmətləri, ölkəyə gələn turistlərin sayı çoxalır.

# AZƏRBAYCANıN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNDƏ TRANSREGİONAL LAYIHƏLƏRIN GEOİQTİSADİ ƏHƏMİYYƏTİ.

- Qərb ölkələrinin, yəni Avropa ölkələri və ABŞ-ın geoiqtisadi maraqlarının bu regionda cəmləşməsində əsas məqsəd enerji təhlükəsizliyinin və enerji təchizatının davamlılığa nail oımaqdır . Bu məqsədə nail olunması üçün bu ölkələr regional sabitliyin təmin oıunmasinda maraqlıdırlar. Regionda mövcud olan münaqişələrin həlli zamanı hərbi yoldan istifadə olunması arzu edilən deyil. Belə ki, bu vəziyyət enerji daşıyıcılarının təchizat sisteminin sıradan çıxmasına və Qərb ölkələrinin ən güclü nüvə dövlətləri hesab edilən Rusiya ilə qarşıdurmasına gətirib çıxara bilər. Bu baximdan də regionun işğal zonalarında mövcud status-kvonun dəyişdirilməsi istiqamərində cəhdlər göstərilmir ki, bu da öz növbəsində bu regionun tamqiymətli geoiqtsadi məkan kimi mövcudluğunun təmin olunmasının mürəkkəbləşməsinə gətirib çıxarır.

# NƏTİCƏ

Azərbaycanın xarici əlaqələrinin inkişafı istiqamətində sistemliliyə nail olunmuş, ölkənin milli mənafelərinin qorunması istiqamətində ciddi irəliləyişlər müşahidə olunmaqdadır. Xarici ticarət əlaqələrinin dinamikası bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən situasiyanın təsirinə məruz qalmışdır. Mövcud meyl və xüsusiyyətləri xarici ticarətin sahə strukturunun dinamikasında da aydın görmək olar. Azərbaycan üçün optimal xarici ticarət strategiyası stabil ixrac əməliyyatlarının genişləndirilməsi ilə yanaşı, idxal əvəzləyici modelin tədbiqi hesab edilə bilər. Məlum olduğu kimi inkişaf etmiş ölkələrin xarici ticarətinin strukturunda maşınqayırma məhsulları üstünlük təşkil edir. (elektronika nəqliyyat vasitələri, texnoloji avadanlıqlar və s) ABŞ-da 52%, Asiya ölkələri ixracında bu məhsullar 48%, Çində 40%, Yaponiyada isə 70 % təşkil edir.

Milli dövlətin mövcudolma şərtləri və onun daha da möhkəmləndirilməsi, həmçinin ölkənin qlobal səviyyəcə yaranmış vəziyyətə konyunktur dəyişikliklərinin yaratdığı "Oyun qaydaları" na adaptasiyası məsələsi Azərbaycan hökumətinin fəaliyyətində dörd istiqamətdə özünü göstərir.

- Birincisi, Azərbaycan hökumətinin Postsovet məkanına aid ölkələr içərisində daha müstəqil siyasət aparması və alternativ kommunikasiya layihələrinin reallaşdırılmasına üstünlük verməklə bu mövqeyini daha da möhkəmlənməsi Bakı-Tbilisi -Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi mühüm kommunikasiya layihələrinin reallaşdırılması və Bakı-Tbilisi-Qars, TANAP üzrə işlərin aparılması buna sübutdur.
- İkincisi, Azərbaycan borc alan ölkədən kreditor ölkəyə çevrilmişdir.
- Üçüncüsü, Azərbaycan ölkəyə investisiya cəlb etməkdə davam etməsi ilə yanaşı əlverişli sahələr üzrə xarici ölkələrə də sərmayə qoymağa başlamışdır. Misal olaraq Türkiyənin iri neft-kimya kompleksi olan PETKİM şirkətini göstərmək olar.
- Dördüncüsü, Azərbaycan xarici amillərin təsiri altına düşmək üçün xarici borcu iqtisadi təhlükəsizlik həddindən xeyli aşağı səviyyədə olması, beləki, ölkənin xarici borcu ÜDM-in 40%-ni keçdikdə ölkənin iqtisadi təhlükəsizliyində problemlər başlayır. Azərbaycanın xarici borcu 8,6 milyard dollardır ki, bu da ÜDM-in 28%-i səviyyəsindədir.

Belə bir nəticəyə gəlmək olar ki, xarici iqtsadi fəaliyyətdə alqı-satqı prosesi konyunktur dəyişikliklər bazasında aparılır, geoiqtisadi konteksdə isə struktur yaratma bazasında əməkdaşlıq münasibətləri formalaşdırır.